

# Avropa Oyunlarının həyəcanı davam edir

**Azərbaycan idmançıları iyunun 19-na olan məlumata görə 12 qızıl, 5 gümüş və 12 bürünc olmaqla cəmi 29 medalla yarış cədvəlində ikinci yeri tutur.**



# Yarışları başa çatmış idman xəbərləri

## Sinxron üzgüçülük yarışlarına yekun vuruldu

İyunun 16-da birinci Avropa Oyunlarının sinxron üzgüçülük yarışlarına yekun vurulub.

Həm fərdi, həm də sərbəst birləşmə üzrə final yarışlarında Rusiya idmançıları qızıl medallar qazanıblar.

Sərbəst birləşmə yarışlarının finalında Rusiya komandası 90.2333 balla çempion adını qazanıb. İspaniya yığması 87.7333 balla ikinci, Ukrayna millisi isə 86.8667 balla üçüncü olub.

Fərdi yarışların finalında isə rusiyalı Anisiya Neborako 170.9924 balla birinci Avropa Oyunlarını qızıl medalına layiq görülüb. Gümüş medala 162.9758 balla ispaniyalı Berta Ferreras Sanz sahib olub. Avstriyalı Anna-Maria Aleksandri isə 162.4333 balla üçüncü yerə çıxıb.

## Azərbaycan millisi Avropa Oyunları çərçivəsində keçirilən karate yarışlarının qalibi olub

Azərbaycan millisi Bakı-2015 I Avropa Oyunları çərçivəsində keçirilən karate yarışlarının qalibi olub.

Apasport.az saytının məlumatına görə, yığmamız iki gün davam edən bu döyüş növündəki qeyri-rəsmi komanda hesabında bütün rəqiblərini arxada qoyub.

12 dəst medalın sahibini tapdığı yarışda millimiz 4 qızıl və 2 gümüş əldə edib. Yığmamızın üzvlərindən Firdovsi Fərzəliyev (60 kq), Rafael Ağayev (75 kq), İrina Zaretska (68 kq) və Ayxan Mamayev (84 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Niyazi Əliyevlə (67 kq) İlahə Qasımova (55 kq) 3-cü olmağı bacarıb.

Türkiyə millisi daha çox - 9 medal qazansa da, mükafatların əyarına görə yığmamızdan geri qalıb. Medal sıralamasında 3-cü yeri Fransa tutub.

Qeyd edək ki, karate yarışlarında 12 ölkə təmsilçiləri ilk "üçlüy"ə düşə bilib.

## İdmançımız triatlonu bürünc medalla başa vurdu

"Bakı-2015" I Avropa Oyunlarında triatlon üzrə yarışlara iyunun 14-də yekun vurulub. Yarışın 2-ci günündə Bilgəh çimərliyində kişi idmançılar mübarizə aparıblar. Üzgüçülük, velosiped idmanı və qaçışda qüvvəsini sınayan triatlonçuların yarışında 58 idmançı qüvvəsini sınayıb. Böyük Britaniya təmsilçisi Qordon Benson finişə 1 saat 48 dəqiqə 31 saniyəyə çataraq qızıl medala sahib çıxıb. Çempiondan 11 saniyə geri qalan portuqaliyalı Joao Silva gümüş mükafata yiyələnib.

Azərbaycan triatlonçusu Rostislav Pevtsov yarışı 3-cü pillədə bitirib. Bürünc mükafat qazanan idmançımız məsafəni 1 saat 49 dəqiqə 4 saniyəyə qət edib.

Rostislav Pevtsov mükafatlandırma mərasimindən sonra yarış haqqında fikirlərini bildirib: "Çox çətin yarış idi. Medal qazanmağı çox istəyirdim və bu, mənim arzum idi. Buna ürəkdən inanırdım və çalışırdım. Bu uğuru əldə etdiyim üçün sevinirəm, qürur hissi keçirirəm. Avropa Oyunlarındakı triatlon yarışlarına məqsədli şəkildə yaxşı hazırlaşırdım. Bütün diqqətimi yarışlara cəmləmişdim. Çünki Avropa Oyunları mənim üçün ən mühüm yarışdır. Bu bürünc medalın mənim və Azərbaycan Triatlon Federasiyası üçün mənası böyükdür. Ümid edirəm ki, bu uğurlu nəticə Azərbaycanda triatlon idman növünün inkişafına təkan verəcək. "Rio-2016" Yay Olimpiya Oyunlarında iştirak etmək üçün bundan sonra da yarışlarda yüksək yerləri qazanmağa çalışacağam".

Qeyd edək ki, triatlonda idmançılarımızın indiyədək belə yüksək nailiyyəti olmayıb.

## Dağ velosipedi üzrə fəxri kürsüyə yalnız isveçrəli velosipedçilər qalxıb

Kişilərin dağ velosipedi yarışında İsveçrə idmançıları Nino Şurter 1-ci yerin sahibi olub. O, finiş xəttini 1 saat 41 dəqiqə 4 saniyəyə keçib.

Gümüş və bürünc medalların sahibi də isveçrəli idmançılar olub. Lukas Flukiqer 13, Fabian Qiqer isə birincidən 33 saniyə arxada yarışı müvafiq olaraq 2-ci və 3-cü yerdə tamamlayıblar.

## Kozak Macarıstanı avarçəkmədə qələbəyə aparır

Danuta Kozak Avropa Oyunlarında üçüncü qızıla da iddialıdır.

Avarçəkmə yarışmasında Macarıstan Almaniyanın bazar ertəsi öhdəsindən gələ bildiyini cümə axşamı etdi: onlar günün ilk iki medal yarışmasında qızıl medalın sahibi oldular və öz ənənəvi rəqiblərinə güclü bir mesaj göndərdilər.

Macar Danuta Kozak qadınlardan ibarət 500m məsafəyə kayak-təkbətək üzrə açılış yarışında 2 dəqiqə 3.569 saniyəlik vaxt çərçivəsində Oyunların ikinci medalını qazanaraq yeni bir uğura imza atdı. Kozak indi avarçəkmə yarışmasında keçirilən dörd yarışdan hər birinin qalibidir.

28 yaşlı idmançı Oyunların xəbər xidmətinə bildirib ki, yarış onun üçün çox ağır keçib:

Çox xoşbəxtəm. Lakin onu da deyim ki, yarış çox ağır oldu. Qarşıdan əsən külək var idi və bunu yalnız suya girəndə hiss etdim. Havada rütubət hiss olunurdu, elə ona görə də çətinliklə nəfəs alırdım.

—Danuta Kozak: Bu səhərin ən böyük sürprizi - hamıya meydan oxuyan Olimpiya çempionları Fransizka Veber və Tina Dietzenin (GER) öz K4 yarışlarında qızıl medal əldə edə bilməmələri oldu. Onlar oyunu yalnız dördüncü yerdə başa vurdular.

Həmçinin, qadınlar arasında cütlərin (K2) 500 m məsafəyə kayak yarışı da alman komandası üçün məyusedici bitdi. Bu yarışda qızıl medal Dama Ruzicik Benedekə və Milika Staroviçə (SRB) nəsib oldu.

Ruzicik Benedekin oyun haqqında təəssüratları belədir:

Çətin idi. Almaniya və Macarıstanın hər ikisi orada idi və sonuncu altı qayıq sonadək mübarizə aparırdı. Ən yaxşı vaxt fürsətinə malik olduğumuza görə, sözün əsl mənasında xoşbəxtəm. Opponentlər isə çox güclü idilər.

—Ruzicik Benedek: Bu səhərin başqa bir yarışında - kişilərdən ibarət 1000 m məsafəyə K4 kayak yarışlarında isə Macarıstanı yenə də Rusiya və Belarusu qabaqlayaraq qızıl medalın sahibi oldu.

Macarıstan indi altı avarçəkmə yarışlarının nəicəsinə görə, daha artıq medala iddialıdır. Danuta Kozak isə 200 m məsafəyə kayak-təkbətək üzrə cümə axşamı keçiriləcək yarışın finalında üçüncü qızıl medalı əldə etməyi qarşısına məqsəd qoyub.

"İndi iki qızıl medalım var və 200 m məsafəyə yarışlarda da qızıl medal qazanmaq arzusundayam"—deyə o, bildirib.

Mingəçevirdə Kür İdman Avarçəkmə Mərkəzində çərşənbə axşamı keçiriləcək final yarışmalarda əlavə səkkiz medal uğrunda da mübarizə aparılmışdır.

Azərbaycan avarçəkənlərindən medalı Kanoeçi, 4 qat dünya və 4 qat Avropa çempionu Valentin Demyanenko qazanıb. İdmançımız kanoençilərin 200 metr məsafəyə yarışında finiş xəttinə ikinci çıxaraq gümüş medalın sahibi olub.

## Qadın güləşçilərimiz Avropada liderdilər

İyunun 15-də Heydər Əliyev adına İdman Sarayında 48 kq, 55 kq, 60 kq və 69 kq çəki dərəcələrində qadın güləşçilər xalça üzərinə çıxıblar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva final qarşılaşmasını izləyiblər.

48 kq çəki dərəcəsində Azərbaycan yığmamızın lideri Mariya Stadnik Portuqaliya, Fransa, Polşa güləşcilərinə yüksək üstünlüklə qalib gələrək finalda Bolqarıstanlı Elitsa Yankova ilə görüşdə 12:1 hesabı ilə qalib olmuş və qızıl medal qazanmışdır. 53 kq çəki dərəcəsində Anjela doroqan da Polşalı güləşçi Roksana zasinaya final görüşündə 3:2 hesabı ilə qalib gələrək ikinci qızıl medalı qazanmışdır. 55 kq çəki dərəcəsində mübarizədə isə Natalya Sinişin isə bürünc medal qazanıb.

## Karatecilərimiz Avropa birincisidir

Karate yarışlarında 12 dəst medal uğrunda 96 idmançı mübarizə aparırdı. Azərbaycan karateçiləri 4 dəst medalın ən yüksək əyarlı medallarını (4 qızıl və 2 bürünc) qazanmaqla I Avropa Oyunlarını birinci yerdə başa vurublar.

**Səhifəni rəsmi materiallar əsasında hazırladı:**
**N. ATAKİŞİYEV.**